**AYDIN MƏDƏTOĞLU (QASIMLI)**

## Mirzə Bala Məmmədzadə "Haylar" (Ermənilər) haqqında

Bütün həyatı boyu «erməni məsələsi»ni gündəmdə saxlayan Mirzə Bala ermənilərin Sovet dövründəki fəaliyyətlərini də bütün incəliklərinə qədər tətqiq edərək göstərmişdi ki, Azərbaycanda azlıqda qalan digər etnik qruplardan fərqli olaraq erməni məsələsinin cəbhələri daha qarışıqdır. Bu məsələdə azlıq təşkil edən bir etnik qrupun mədəni-milli muxtariyyəti bəhs mövzusu deyildir. Burada, Azərbaycanda yaşayan və azlıqda qalan etnik qruplar sırasında bulunan ermənilərin Azərbaycan daxilində bir dövlət halına gəlməsi, dünya ermənilərinin mühacirət qolu ilə bu erməni dövləti ərazisinə cəm edilməsi və bu ərazini Qarabağı, Zəngəzuru, Gəncəsi ilə bərabər Yerevan Ermənistanına ilhaq etmək kimi məsələlər qarşısındayıq.

Bütün bu hərəkətlərin Daşnak partiyası tərəfindən Moskva ilə müəyyən anlaşma üzərinə Moskvanın himayə və müdafiəsi altında Azərbaycan və Gürcüstan hesabına cərəyan etməkdə olduğunu xüsusi qeyd edən Mirzə Bala «Zarya Vostovka»da dərc olunan məqaləyə əsaslanaraq göstərir ki, Muxtar Dağlıq Qarabağ əyalətində daşnaklar hakim vəziyyətində olub erməni kommunistləri tərəfindən himayə edilirlər. Erməni kommunistləri hətta Qarabağda ermənicə yayınlanmaqda olan «Horurdain karabağ» qəzeti daşnaklarla mücadilədən imtina etmiş, hətta daşnakları «Marksist məktəbinə mənsub» - deyə göstərir, daşnakların liderlərini «inqilabçı Marksizmin əsasını qoyanlar» - deyə mədh edir. Erməni kommunistlərinin daşnak və milliyyətçiliklə mücadilə edənqismi mücadiləni qəbul etməklə bərabər daşnakların mövcud olmadığını iddia edirlər. Deməli, onlara görə, ermənilərdə daşnakçılıq və milliyyətçilik yoxdur. Hər şey yolundadır. Yalnız türklərin arasında müsavatçı var. Onlardan hər şey gözlənilə bilər. Onlar deyirlər ki, türklərdən kommunist olmaz. Erməni kommunistlərinin rəyincə, ermənilərdə burjuaziya və məhv ediləcək kənd mülkədarı yoxdur. Bu kimi siniflər ancaq Türkiyədə ola bilər. Qarabağ erməni kommunistlərində hakim olan fikrə görə, köçəri türklər həp qolçomaq və həm də kənd burjuazisidirlər. Ona görə də bütün türk kəndlisi məhv edilməlidir.

«Moskva ilə Daşnak partiyası arasında əməkdaşlığın səbəbi və bu iki qüvvəni birləşdirən müştərək mənfəətlər başlı-başına bir məsələdir» - deyən Mirzə Bala bu iki qüvvəni birləşdirən səbəbləri şərh edərək göstərirdi ki, Anadolu ilə Azərbaycan arasında «Çin səddi»nə bənzər bir «Hay səddi» çəkilməsi Moskvanın nəzərində Azərbaycan, Türküstan, Şimali Qafqaz və İdil (Volqaboyu) türklərini Türkiyə nüfuzundan və «Türkçülük təhlükəsi»ndən təcrid edir və ruslaşdırılmalarını asanlaşdırırdı. Azərbaycanda Türküstandan vaz keçməyi özü üçün bir ölüm sayan Moskva bu «Hay səddi»ndən böyük faydalar bəsləməkdədir.

Daşnakların isə türklük əleyhinə yönəlmiş bu siyasətdən maksimum istifadəyə çalışacaqlarından təbii bir şey ola bilməzdi. Mənşəyi bolşevikliyin ilk günlərindən başlayan bu bolşevik –daşnak dostluğu xüsusilə «Lozan sülhü»ndən sonra daha bir şiddət kəsb etdi. 1923-cü ildə daşnak generallarından məşhur Drov və digərlərinin imzası ilə bir «Bəyannamə» nəşr edilmişdi. Bu bəyannamədə Qafqazda qalan daşnaklar Ermənistanın yalnız Qızıl Ordu sayəsində himayə olunacağını və erməni xalqına ancaq Sovet idarəsi sayəsində tərəqqi və inkişaf edəcəklərinə qane olduqlarını elan edirdilər. Beş il sonra da erməni Hınçaq partiyası rəsmən dağılmış və kommunistlərə birləşmişdi. Erməni mili hökumətinin başçısı Kaçaznuni «Daşnak partiyasının iflası» adını daşıyan və manevr məqsədilə yazılmış kitabında Daşnak partiyasının illərdən bəri təqib eylədiyi siyasətin iflasını elan etməklə yanaşı, erməni xalqına xidmət etməyi özlərinə şərəf sayanları mənasız xülyalardan vaz keçərək, Ermənistanın Sovet hökuməti tərəfindən icad və yenidən doğulması işində iştiraka dəvət etmişdi. 1923-cü ildə Vyanada keçirilən Daşnak partiyasının qurultayında Kaçaznuninin bolşeviklərlə anlaşmaq tezisini müdafiə elədiyi məlumdur. Bakı qəzetləri də 1925-ci ildə Kaçaznuninin Ermənistana dönmək və son illərini Sovet

Ermənistanına həsr etmək istədiyini yazmaqda idilər. Həqiqətən də Kaçaznuni Ermənistana dönməkdə gecikmədi. «İzvestiya» qəzeti onun bu təqdirəlayiq cəsarətindən bəhs edirdi. Bolşevik mətbuatı Kaçaznuninin bolşeviklərə sığınmasını alqışladıqları zaman Paris qəzetləri Daşnak partiyasının X qurultayında qəbul edilən qərarları dərc edirdi. Bu qərarlara görə «10-cu Daşnaksütyun konqresi, istinasız olaraq bütün üzvlərinin ittifaqı ilə bir səslə müstəqil Ermənistan proqrammı üzərində qəti dirəndiyini elan edir. Hal-hazırda mövcud kiçik Ermənistanı əsas olaraq qəbul edən Daşnaksütyun partiyası siyasi və iqtisadi inkişafını təmin edəcək bir hüduda malik Ermənistan təsisinə səy edəcəklər. Daşnaksütyun partiyası Türkiyədə erməni millətinin haqlı tələbini qəbul etdirmək əzmində mətin olub. Sovet cəbhəsinə gəlincə, bolşevik diktatorluğu ilə imperializmə qarşı barışmaz bir fikir mücadiləsini davam etdirir. Fəqət, erməni xalqının çoxu qürbətdədir. Sovet Ermənistanında ancaq bir milyon iki yüz min erməni var. İki milyona yaxın erməni müxtəlif məmləkətlərdə sığınmışdır. Buna görə də erməni xalqının tamamilə dağılması və soysuzluğa uzadılmaması üçün partiya gənc nəslin tərbiyəsinə böyük əhəmiyyət verib mühacirlərin məmləkətə göndərilməsi işini təşkil edəcəkdir.

Daşnaksütyun partiyasının qərarlarını o zaman nəşr edən «Poslednıy Novosti» qəzetinin qurultay nümayəndələri ilə yapdığı təmaslardan alınan təəssüratları şərh edən Mirzə Bala göstərirdi ki, burada «Böyük Ermənistan proqramı»dan, ermənilərin məmləkətə dönməsindən, Daşnaksütyun partiyasının Rusiya ilə ən sıx bir münasibətdə bulunmasından, bolşevizmə qarşı yalnız fikri mücadilə etməsindən bəhs edilmişdi.

O illərdəki Avropa rus sosialist mətbuatının daşnakların bolşeviklərlə anlaşmaq üçün müxtəlif zamanlarda xeyli sayda təşəbbüsdə bulunduqlarını qeyd edən Mirzə Bala 1925-ci ildə «Dni» qəzetində nəşr edilən bir yazıda verilən faktlara dayanaraq göstərir ki, 1921-ci ildə Bükreş konqresindən sonra Daşnaksütyun partiyasının nümayəndələri Riqaya gəlib burada sovet nümayəndələri ilə görüşmüş, bolşeviklərlə daşnakları barışdırmaq üçün səy göstərmişdilər. 1923-cü ilin may ayında Vyanada keçirilən daşnak konqresində artıq bolşeviklərlə müzakirə məsələsi bəhs mövzusu olmasa da daşnak partiyasının bu xüsusda tutacağı hərəkət xətti «Sadiqanə müxalifət» şəklində təsəvvür olunurdu.

Ermənistanın cənubu Türkiyədir. Türkiyə dörd gözlə bəkləyir ki, Qafqaz yenidən qarışacaq, bolşevik ordusu çəkiləcək, Rusiya təkrar gedəcək və Türkiyə Ermənistan yolu ilə qardaş Azərbaycana, Bakıya və bəlkə də ötəyə getmək imkanı bulacaqdır. Erməni xalqının və onunla bərabər daşnaksütyun partiyasının bolşevizmi başqa cür tədqir etməsindəki hikmət budur. Məsələyə ideoloji-siyasi qiymət verən Mirzə Bala göstərir ki, rus ilə daşnakların türklük əleyhinə birləşmiş olduqları aşkar gözə çarpmaqdadır. Daşnaksütyun partiyası bu yaxınlaşma və anlaşmanı yapdığı zaman Moskva «Lenin milli siyasətini» tənzim etməklə məşğul idi. O «Lenin milli siyasəti» ki, daşnaklara bütün erməniləri Ermənistana, Zəngəzura və Qarabağa toplamaq imkanı verməkdə idi. Avropadan, Rusiyadan, İrakdan, İrandan erməniləri bu türk yurduna axıtmağa başlamışdılar.

Zaqafqaziya Sovet Cümhuriyyətinin İstanbul ticarət təmsilçisi Maknezyan İstanbulda nəşr edilən «Jurnal Doryan» qəzetinə 1923-cü ildə verdiyi bir intervüdə Rumınya, Bolqarıstan, Yunanıstan, hətta İngiltərə və Fransa tərəfindən qəbul edilməyən erməni mühacirlərinin acınacaqlı hallarını nəzərə alaraq Sovet İttifaqı xarici işlər komissarı Çiçerinə göndərilən müraciətlər nəticəsində erməni mühacirlərindən on mininin Azərbaycan, Gürcüstan və Ermənistan Cümhuriyyətləri ərazisinə qəbul ediləcəkləri cavabını aldığını söyləmişdi. Moskva dünyaya yayılmış ermənilərin hamısını Qafqazda qəbul edəcəyini rəsmən elan etdiyini bütün dünya qəzetlərində və İstanbul mətbuatında da oxuduq.

İndiki Sovet Ermənistanının ərazisi Azərbaycandan alınmış Zəngəzur və digər ərazilərlə bərabər 30 min 948 kv.km olub 1926-cı il statistikasına görə əlahisi 876 min nəfərdir . Ermənilərin bu ərazilərdə barınmayacaqlarını nəzərə alaraq onları qərbi və cənubi-qərbi Azərbaycanla cənubi Gürcüstanda məksunlaşdırmışlar. Məqsəd bu ərazilərin gələcəkdə Yerevan Ermənistanına ilhaqını təmin etməkdən ibarətdir.

Daşnakların xaricdəki fəaliyyətini daima nəzarətdə saxlayan Mirzə Bala Məmmədzadə vaxtaşırı onların sayıqlamalarına mətbuat vasitəsilə cavab vermiş və göstərmişdi ki,bir ucu Qahirə-Misir, o biri ucu isə Boston-Amerika olmaq üzrə daşnak mətbuatı səs-səsə vermiş, Moskvaya qarşı «müthiş bir səfər» açmışdır. Açılan bu səfər bizim Qafqaz mətbuatının və «Prometey» cəbhəsi millətlərinin illərdən bəridir davam etdirdikləri mübarizəyə qətiyyən bənzəməz, əksinə zidd olan bir mübarizədir. Biz millətimizin haqqını, istiqlalını müdafiə edərəkMoskvanın əsarətindən qurtarmağa təşviq edərkən daşnaklar və onların mətbuatı tam əks bir istiqamət almış, ənənəvi yanlış yolunda israr və inadla yürüməkdə davam edirlər. (Bax: M.B.Mehmed-zade, Taşnakların açtıkları sefer, «Kurtuluş» dergisi №10, Berlin 1935. Səh 268).

Bəllidir ki, Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra dünyanın müxtəlif ölkələrinə dağılan daşnaklar bu ölkələrdə türklərə qarşı iyrənc siysətlərini davam etdirmişlər. Daşnakların fəaliyyətini izləyən Mirzə Bala göstərir ki, qarşımızda Qahirədə çıxan «İsaber» ilə Amerikada nəşr edilən «Ayrenik»in mart və aprel aylarına aid bir neçə məqalə durur. Bu məqalələrdən göründüyü kimi, Moskva onların gözündə mənfurdur. Moskvanın Azərbaycanla Gürcüstanı Ermənistana qarşı himayə etdiyi üçün Sovet hökuməti erməni millətinin mənfəətlərini təmsil edə bilməz və ermənilər Sovet hökumətinə mənfi nəzərlə baxmaq məcburiyyətindədir. Çünki Moskva ermənilərin Qarabağını, Gəncəsini, Naxçıvanını, Borçalısını, və s. almış və tatarlarla (Azərbaycan türkləri nəzərdə tutulur) gürcülər arasında bölmüş imiş. Stalin belə «tatarlarla» gürcülərin yiyəsi imiş və eyni zamanda Stalin Ankaranın da müti qulu imiş. Yenə Ankaranın müdaxiləsi sayəsində «İstiqlal dövründə Ermənistandan sıxışdırılıb çıxarılan müsəlmanlar yenə oraya dönmüş və ermənilərin Ermənistana mühacirətinə son verilmişdir».

Daşnaklara görə, sovet hökuməti erməni istəklərini kiçik miqyasda olsa da təmin etsəydi, bəlkə də Türkiyə-bolşevik dostluğu «hürriyyətsevər ermənilərə» bu qədər ağır gəlməzdi. Əfsuslar olsun ki, 15 ilin acı təcrübəsi göstərir ki, bolşeviklr qismən də olsun Ermənistana qarşı siyasətdə bulunmuq üçün dostları türkləri heç bir zaman məcbur etmək təşəbbüsündə bulunmamışlar. Daşnaklara görə bütün bunlarn nəticəsi idi ki, coğrafi vəziyyəti etibarilə Azərbaycana yabançı olan və Ermənistanla bitişik olan Naxçıvan qəzası Sovet Ermənistanı içərisinə salınmaqdansa Azərbaycana ilhaq edilmişdir. Ankaranın müdaxiləsi ilə Sərdarabad ovasının böyük suvarma planı rədd edilmiş və erməni mühacirlərinin Qafqazda yerləşdirilməsi müəyyən olmayan zamana qədər durdurulmuşdur.

Ankaranın ümumi «Türk planı» nəticəsində (?) böyk hərbdən öncə yarım erməni olan Gəncə bu gün ermənilərin bulunmadığı tatar şəhəridir. Təbiidir ki, belə bir vəziyyətdə Sovet hökuməti düşmənimizlə yapdığı dostluq nəticəsində bizə zərərli qayələr tətbiq etdiyi üçün biz Sovet hökumətinə mənfi nəzərlə baxmaq məcburiyyətində qalacağıq – deyən daşnakların bu sayıqlamalarına cavab olaraq Mirzə Bala göstərir ki, sayıqlamalarda məntiq aranmaz. Başdan-başa türk olan Naxçıvan üzərindəki haqlarını coğrafi yaxınlıqla izah edərkən, həm əhali baxımından türk, həm coğrafi baxımdan Azərbaycanın göbəyində olan və Ermənistanla heç bir münasibəti bulunmayan Qarabağla Gəncə üçün eyni prinsipi tətbiq edir. Naxçıvan Ermənistana verilməli imiş, çünki coğrafi vəziyyəti etibarilə Ermənistana yaxın imiş, Gəncə də Ermənistana verilməli imiş, çünki müharibədən öncə əhalisinin yarısı erməni imiş. Qarabağ da vaxtilə Moskva tərəfindən söz verilmişdir, onun üçün Ermənistana verilməli imiş. Əgər bütün bunlar baş tutsa daşnakları bolşeviklərlə heç bir düşmənçiliyi qalmayacaqmış.

Daşnakların bu sayıqlamalarına Qahirədə nəşr olunan «İsaber» qəzetində də rast gəlirik. Bu qəzetdə dərc olunan bir məqalədə göstərilir ki, ermənilərin çox axtarmaqda olmalarına baxmayaraq, Zaqafqaziyada «Tatar-gürcü» bloku öz iqtisadi siyasəti tərəfgiranə hərəkəti ilə ermənilərin çoxalmasına mane olur və erməni ərazilərinin mənimsənilməsi ilə yetinməyərək, başqalarının , yəni ermənilərin qanla və qırğınla yapdıqlarını onlar sülh yolu ilə yapırlar. Bütün bunlara cavab olaraq Mizə Bala göstərir ki, sayıqlamalarda məntiq aranmaz, çünki beynin qeyri-şüuru fəaliyyətindən sayıqlama xəstəliyi doğar.

«Ayrenik» qəzetinin 16 mart 1935-ci il nömrəsində dərc olunan «Ankaranın müdaxiləsi ilə Sərdarabad ovasının böyük suvarma planı rədd edilmiş və erməni mühacirlərinin Qafqazda yerləşdirilməsi müəyyən olmayan zamana qədər durdurulmuşdur» fikrinə qarşı Mirzə Bala «Qurtuluş» dərgisində Sərdarabad su bəndi və Arazın dövlətlərarası əhəmiyyəti» adlı məqalədə yazmış və məqalədə göstərilmişdi ki, istər daşnaklar, istərsə də bolşeviklər sərhəd xəttini təşkil edən və bir neçə məmləkətdən keçən hər bir beynəlmiləl çay kimi Arazın da ortaq bir su olduğunu unudurlar və ya bu cəhətə bilərəkdən laqeyd yanaşırlar. «İzvestiya» qəzetinin daşnaklara bir növü təskinedici mahiyyətdə cavab verilən məqaləsində anlaşılır ki, Millətlər Cəmiyyəti 1926-cı ildə mühacir erməniləri müəyyən ərazilərdə yerləşdirmək qərarına gəlmişdi. Sovet hökumətinin təklifi ilə bu mühacirlər üçün Sərdarabad ovası təsis edilmişdir. Bu quru çöldə kəndlilər ibtidai üsulda dərin dərə ilə axan Arazdan gətirdikləri sudan istifadə edirdilər. 1924-cü ildə Moskva Sovetinin fəxri üzvülüyünə seçilmiş olan Norveç alimi humanist Fritov Nansen doğrudan da 1927-ci ildə fransız və italyan mühəndislərindən ibarət bir heyətlə Ermənistana gəlmiş və tədqiqatda bulunmuşdu. Nansen heyəti Arazda yapılacaq bir suvarma bəndi sayəsində 80 min hektar ərazinin suvarıla biləcəyi qərarına gəlmişdi. Nansenin proyektini Sovet hökuməti kənardan bir qəpik yardım almadan icra etdirmişlər. Suvarma sisteminin ilk mərhələsi yapılmışvə Sərdarabad çölündə 20 min hektarlıq ərazi güllü-çiçəkli bağa və yam-yaşı tarlalara çevrilmiş, minlərlə mühacir erməni ailəsi burada yeni və məsud bir yurd bulmuşdur.

Sovet hökumətinin bu vəziyyətdən necə hiyləgərcəsinə istifadə etdiyini qeyd edən Mirzə Bala ermənilərin Zaqafqaziyada «ogey oğul» olduqlarından və ermənilərin «gürcü-azəri bloku» tərəfindən «ağ qırğına» məruz qaldıqlarından hərarətlə bəhs etməkdən çəkinməyən daşnak mühacirlərinə xatırladır ki, Ermənistandakı istər suvarma Sərdarabad sisteminin, istər dünya suvarmalarla QES-deyilən hidro-elektrik stansiyalarının və Avropa ilə Yaxın Şərq məmləkətindən Ermənistana dönüb yerləşən minlərlə erməni ailəsinin məsrəflərini məhz Zaqafqaziya Sovet Federasiyası müştərək büdcədən vermişdir ki, bu büdcənin 70-80 faizini Azərbaycan təmin edirdi. Həmçinin bu paralar Qafqaz erməniləri üçün deyil, Qafqaz ilə heç bir əlaqəsi olmayan ermənilər üçün sərf edilmişdir.

Araz o məntəqədə Türkiyə ilə Ermənistanın sərhəd xəttini təşkil edir və bütün dünyada olduğu kimi burada da xətt çayın tam ortasından keçir. Deməli, çayın hər iki sahilinə dayanmaq məcburiyyətində olan bir sədd iki dövlətin – Türkiyə və Ermənistanın torpaqları üzərində inşa edilmiş deməkdir və iki dövlətə aid olan ortaq bir su yalnız bir tərəfə sövq edilə bilməz. (Bax: M.B.Mehmedzade, Serdar-abad su bəndi və Arasın dövlətlərarası əhəmiyyəti, «Kurtuluş» dərgisi№12, Berlin 1935, səh. 337-339).

Yuxarıda qeyd edildiyi kimi, dünyanın müxtəlif ölkələrinə yayılan daşnaklar getdikləri ölkələrdə «Daşnaksütyun» partiyasının çatısı altında birləşərək türklərə qarşı iyrənc planlarını həyata keçirməyə çalışmışlar. Belə ölkələrdən biri də İran adlandırılan məmləkətdir. İran məmləkəti erməni milli hərəkatının mərkəzinə çevirən, İran hakim dairələrinin onlara qarşı müsbət münasibətindən istifadə edən mühacir daşnaklar orada yaşayan ermənilərlə birlikdə İranda özlərinin bir sıra siyasi, ictimai, və iqtisadi-maliyyə təşkilatlarını yaradaraq, məktəblər açmış, qəzet və jurnallar nəşr etməyə başlamışdılar. Rza Pəhləvinin hakimiyyətə gəlməsindən yararlanan ermənilər İranın bir çox mülki və hərbi idarələrinə soxulmuş, iqtisadi və ticari hegemonluğu öz əllərinə almağa çalışmışdılar. Bütün bunlar azmış kimi, Sovet İttifaqının İrandakı səfiri erməni Davityanın köməyi ilə ermənilər səfirlikdəki əsas vəzifələri öz əllərinə keçirmiş, Azərbaycan türklərinə qarşı təbliğatdan əl çəkməmişdilər. Ermənilərin İrandakı anti-türk fəaliyyətinin canlı şahidi olmuş Mirzə Bala Məmmədzadə orda olduğu müddətdə ermənilərin anti-türk siyasətini incəliklərinə qədər özünün məşhur «Ermənilər və İran» adlı əsərində əks etdirmişdir.

Müəllif bu əsərdə ermənilərin daha güclənməyə çalışdıqlarını faktlarla göstərmiş və «Lozanna» sülh konfransından sonra erməni şovinistləri İranda ciddi fəaliyyə keçmişdi. İran mətbuatının bəziləri o cümlədən də «Təbriz», «Pərvəriş» və s. qəzetlərdə bilərək və ya bilməyərəkdən ermənilərin bu fəaliyyətinə alət olurlar.

Daşnaksütyun partiyasının Türklərə qarşı göstərilən mövqedə olduqlarını şərh edən Mirzə Bala Məmmədzadə Parisdə nəşr olunan «Truşak» adlı erməni qəzetində «İran» və «Turan» başlıqlı iftira dolu yazısını elmi şəkildə tənqid edərək göstərir ki, məqalə müəllifinə görə, guya Ankara Turançılığın qaynağı və mərkəzidir. Ona görə Tehran və İsfahan da ari soyundan olan xalqların qardaşlıq və birlik qaynağı, İranizm və ya Ayranizmin mərkəzi olmalıdır. Türk dövləti güclüdürsə, istər maddi, istərsə də mənəvi baxımdan İran da güclü ola bilər. Osmanlı torpağı genişdirsə, İran ondan üçqat böyük ola bilər. Bunun üçün də «arilik ocağıvə arilik mərkəzi» yaradılmalıdır. Bu mərkəz və ocaq ərafında fars və digər əcəmlər, kürdlər, igid lurlar və bəluclar, ermənilər, əfqanlar və bütün ari irqindən olan millətlər toplanmalı və birləşməlidir.

Mirzə Bala yazır: «Ermənilər bulunduqları tarixi, dini və mədəni özəllikləri ilə İslam və Şərq mədəniyyəti çərçivəsinin xaricindədirlər. Ari qövmlərindən sayılan ruslarla farsların birləşməsi nə qədər mümkündürsə, ermənilərlə farsların birləşməsi də bir o qədər mümkündür. Bəllidir ki, ermənilər qərb, yunan, Bizans və Xristian uyqarlığının təsirində olduqlarındanŞərq uyqarlığının təmsilçilərindən biri olan farslarla tarix boyu qanlı savaşlar yapmışlar. Bu məqsədlə onlar Qafqazda türkləri və gürcüləri eyni metodla Türkiyə və Güney Azərbaycanda da türkləri qıraraq Erməistan yaratmaq istəyirlər. Bu məqsədlə ermənilər bir «Böyük Ermənistan» xəritəsi yaradaraq bu xəritəyə Ermənistanı, Trabzon və Samsundan, Azərbaycanın Gəncə şəhərindən başlayaraq Kür çayı ilə Xəzər dənizinə qədər uzanan əraziləri, Naxçıvan ilə Ordubadı, Güney Azərbaycanda isə Astara, Ərdəbil, Qarabağ, Təbriz, Xoy, Maku, Səlmas və Urmiya ərazilərini daxil etmişlər».

Daşnaksütyun partiyasının İrandakı ideoloji və siyasi fəaliyyətini həryönlü şərh edən Mirzə Bala göstərir ki, indii də Daşnaksütyun şeytana papaq tikən Tehran diplomatlarına «Şahnamə» oxutmaq və Pan-İranizm damarlarına basmaqla «yeni bir papaq» tikmək istəyir. Daşnaksütyun İranın şərq yönümünü qərbə və şimala çevirmək sayəsində İran və Türk dünyası arasında yeni qanlar axıtmaq yolu ilə Avropa dövlətlərinin himayəsinə sığınaraq böyük Ermənistanı yoxdan yaratmaq xülyasındadır. Daşnak partiyası ruslarla və çar yandaşları ilə birlikdədirlər. Öz birləşmə gərəyincə ermənilər Rusiyanı parçalamaqla təhdid edən Azərbaycan, Gürcüstan, Dağıstan və Türküstan milli hərəkatlarını arxadan İran qüvvətləri ilə vuracaq və digər yandan da rus çarlığının qurulmasından sonra Qafqazda, Türki yədə və İranda xəyalı Hayıstanı yaradacaqlarına inanırlar.

Mirzə Bala Məmmədzadənin ermənilərlə bağlı fikir və mülahizələri, ermənilərin İran və digər xarici ölkələrdəki fəaliyyəti, erməni-fars münasibətləri məzmun və mahiyyət baxımından dəyişmədiyindən müəllifin XX əsrin əvvəllərində apardığı elmi və siyasi təhlillər və şərhlər öz aktulalığını bu gün də qoruyub saxlamaqdadır.